**UOT 48.41.45**
**https://doi.org/10.59849/2311-8482.2024.3.216**

**AYSEL NOVRUZOVA***

# NAXÇIVAN MUSİQİ MƏKTƏBİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ

*Məqalədə Naxçıvan musiqi məktəbinin ən görkəmli nümayəndələri – Səfər Rəcəbli, Ramiz Mirişli və Nəriman Məmmədovun həyat və yaradıcılıqlarından bəhs olunur. Həmçinin bu musiqi xadimlərinin keçdikləri sənət yolu izlənilməklə, Azərbaycan musiqisinə bəxş etdikləri incilərdən söhbət açılır. Bunlarla yanaşı Naxçıvan Pioner və Məktəblilər Evində fəaliyyət göstərən "Əlvan çiçəklər" Mahnı və Rəqs Ansamblı, Naxçıvan Dövlət Mahnı və Rəqs Ansamblı, Naxçıvan Bəstəkarlar İttifaqının yaranması və inkişafında onların xidmətləri işıqlandırılır.*

**Açar sözlər:** *Naxçıvan, bəstəkar, musiqi xadimləri, S.Rəcəbli, R.Mirişli, N.Məmmədov, xalq çalğı alətləri.*

## Giriş

Azərbaycan qədim tarixi, zəngin mədəniyyəti ilə bəşər tarixinin ən qədim sivilizasiya mərkəzlərindən biridir. Ümumilikdə zəngin Azərbaycan mədəniyyətinin mühüm tərkib hissələrindən birini də musiqi mədəniyyəti təşkil edir. Dünya səviyyəsində qəbul edilən Qobustan, Gəmiqaya qayaüstü rəsmlərində musiqi ilə bağlı təsəvvürlər, musiqi və rəqsin vəhdətindən ibarət olan təsvirlər xalqımızın ilkin musiqi sənətinin, musiqinin xalq həyatında və məişətindəki yerinin göstəricisi olmaqla, musiqi xalqımızın məişət mədəniyyətinin ayrılmaz tərkib hissəsi kimi önəmli rol oynamışdır.

XX əsr Azərbaycanın ictimai-siyasi həyatında olduğu kimi, Naxçıvanda da ədəbi-mədəni həyatla yanaşı milli mədəniyyətimizin inkişafında, xüsusilə musiqi sahəsində sürətli inkişaf mərhələsi olmuşdur. Azərbaycan Xalq Cumhuriyyəti dövründə həyata keçirilən, sovet dövründə davam etdirilən təhsil, mədəniyyət siyasətinin genişlənməsi istiqamətində görülən işlərin nəticəsində muxtar respublikada profesional musiqi sənətinin inkişafında yeni mərhələnin əsası qoyuldu. Milli musiqi sənətinin inkişafı, eləcə də musiqi təhsilinin təkmilləşdirilməsi nəticəsində milli musiqi nümunələrinin toplanması, yazıya alınması ilə yanaşı, musiqi məktəblərinin yaranmasına vəsilə oldu. Belə ki, 1937-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəylinin Naxçıvanda əsasını qoyduğu ilk uşaq musiqi məktəbi, bəstəkar Tofiq Quliyevin rəhbərliyi ilə Naxçıvanda Caz orkestri (1942), Dövlət Konsert briqadasının (1959) fəaliyyətə başladı. Niyazi, Bülbül, Rəşid Behbudov kimi görkəmli sənətkarların vaxtaşırı muxtar respublikaya səfərləri, burada musiqi sənətinin, profesional musiqi ocaqlarının təsis olunmasına rəvac verdi. Həmin illərdə Naxçıvan uşaq musiqi məktəbinin məzunlarının Bakıda profesional musiqi təhsili alaraq doğma Naxçıvana qayıtması, bir tərəfdən muxtar respublikanı musiqiçi-pedaqoq kadrlarla təmin edilir, bir tərəfdən bu musiqiçilərin sayəsində müxtəlif xarakterli musiqi kollektivləri yaranır, digər tərəfdən də müxtəlif konsert proqramlarının təşkili və proqramların hazırlanması zamanı burada fəaliyyət göstərən profesional təhsilli musiqiçilər bəstəkarlıq fəaliyyətinə meyl edirdilər. Bütün bunlar isə muxtar respublikada milli musiqi sənətinin nikişafında mühüm xidmətləri olan, profesional musiqi təhsili görmüş kadrların yaradıcı əməyinin nəticəsində bəstəkarlıq sənəti də formalaşıb təkmilləşir. Formalaşan baza, görülən işlərin nəticəsində 1978-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının plenumu Naxçıvanda keçirilir. Uğurla keçən plenumda qərara alınır ki, Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan şöbəsi yaradılsın. 1980-ci ilin əvvəllərində Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan şöbəsi yaradılır və təşkilatın ilk sədri, görkəmli bəstəkar Ramiz Mirişli seçilir. Təşkilatın məsul katibi vəzifəsinə isə bəstəkar və pedaqoq Məmməd Ələkbərov təyin olunur. Beləliklə, 1980-ci ildən fəaliyyət göstərən Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan şöbəsi 1995-ci ildən etibarən Naxçıvan Bəstəkarlar Təşkilatı kimi formalaşır.

Yaranmış münbit zəmində Səfər Rəcəbli, Nəriman Məmmədov, Məmməd Məmmədov, Məmməd Ələkbərov, Ramiz Mirişli, Rəşid Məmmədov, Vahid Axundov kimi gənc, istedadlı musiqiçilərdən ibarət ilk bəstəkarlar yetişir. Nəzərə alaq ki, bu sənətkarların bir qismi professional çərçivədə bəstəkarlıq təhsili almamışdır. Amma onların böyük təşəbbüskarlığı ilə ilk bəstələrin yaranması bir tərəfdən Naxçıvanda bəstəkarlıq sənətinin təşəkkülünü gerçəkləşdirir, digər tərəfdən də istedadlı musiqiçilərin bəstəkarlıq sənətinə olan marağını artırmaqla doğma diyarda musiqi sənətinin inkişafına öz töhfəsini verirdi.

Əsası ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin birinci dövründə qoyulan milli inkişaf strategiyası muxtar respublikanın da mədəni inkişafına öz töhfəsini vermişdir. Yaradılan şəraitin

bəhrəsidir ki, müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən uşaq musiqi məktəblərinin sayı xeyli artmış, fəaliyyətləri genişlənmişdir. Odur ki, onlar həm respublika, həm də dünya səviyyəli festivallarda, müsabiqələrdə uğurla iştirak edirlər.

Naxçıvan musiqi mədəniyyətinin inkişafında, formalaşmasında Bəstəkarla təşkilatının da özünəməxsus yeri və rolu olmuşdur. Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı müstəqillik illərində daha da uğurlu fəaliyyət yolu keçmişdir. Muxtar Respublikanın mədəni tərəqqisi naminə əzmlə çalışan Bəstəkarlar Təşkilatı Naxçıvanda musiqi sənətinin yaşadılması, inkişafının əsas yükünü üzərinə götürməklə yanaşı muxtar respublikanın mədəni həyatında da fəal iştirak edir, milli mədəniyyətimizin qorunması və yaşadılması sahəsində əməli fəaliyyət göstərir. Bu gün Naxçıvan bəstəkarlıq məktəbinin görkəmli yetirmələrindən Səfər Rəcəbli, Ramiz Mirişli, Nəriman Məmmədovun adları xüsusilə vurğulanır.

## NAXÇIVAN MUSİQİ MƏKTƏBİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ

**Səfər Rəcəbli** Naxçıvan musiqi mədəniyyətinin, muxtar respublikada musiqi təhsilinin inkişafında özünəməxsus xidmətləri olan, adı hələ də musiqiçilər arasında ehtiramla çəkilən istedadlı sənətkarlardan biridir. Səfər Abdulla oğlu Rəcəbli 1915-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. İki yaşında olarkən dünya balaca Səfər üçün zülmətə çevrilir. O, həyat işığından məhrum olur. "O dövrdə Naxçıvanda muğamın vurğunu olan Süleyman Süleymanov hər cümə günü xanəndələrin məclisini keçirərdi. Bu məclisdə tanınmış müsiqiçilərlə yanaşı gənc musiqisevərlər də iştirak edərdilər. Balaca Səfər də uşaqlarla birlikdə ora gedərdi. Evdə tək olanda melodiyaları zümzümə edərək masa üzərinə əlləri ilə ritmik zərbələr vuraraq zümzüməni müşayət edərdi. Övladının bu həvəsini görən atası Abdulla kişi oğlunun başı qarışsın deyə oğluna bir dəf (qaval) alır. Dəf Səfərin sirdaşına çevrilir. Abdulla kişi onu Naxçıvanda məşhur dəf çalan Məşhədi Əbdülün yanına aparır. Burada o, musiqi aləminə ilk kövrək addımlarını atır, alətin incəliklərini öyrənir. İllər ötür, Səfərlə birlikdə onun musiqi duyumu, ifaçılıq qabiliyyəti, musiqiyə olan tükənməz vurğunluğu daha da inkişaf edir" [4, s. 12-14]. Onun istedadını görən musiqiçilər onu toy məclislərinə dəvət edirlər. Səfər də məclislərdə müxtəlif xırdalıqlar edir, yeni maraqlı ritmlər səsləndirir. Bu illərdə Naxçıvan Radio Verilişləri Komitəsində Xalq Çalğı Alətləri Ansamblı təşkil olunur. Ansamblın rəhbəri Yusif müəllim qavalın ən yaxşı ifaçılarından biri olan gənc Səfəri ansambla dəvət edir. Bununla da Səfər həm musiqi sahəsində, həmdə pedaqoji sahədə yaradıcılığını davam etdirir.

Səfər Rəcəblinin rəhbərlik etdiyi Naxçıvan şəhər Pioner və Məktəblilər Evində fəaliyyət göstərən musiqi və rəqs dərnəklərinin "Əlvan çiçəklər" ansambılının yüksək səviyyəyə çatmasında mühüm rolu olmuşdur. Səfər Rəcəblinin adının "Əlvan çiçəklər" Mahnı və Rəqs Ansamblı ilə birgə çəkilməsi, çoxsaylı istedadlı gənclərin gələcək fəaliyyət yolunun müəyyənləşməsi bu ansambla onun uzun illər rəhbərlik etməsi və səmərəli fəaliyyətinin bəhrələridir. O, Pioner və Məktəblilər evində ayrı-ayrı dərnəklərin də fəaliyyətinin təşkilində müstəsna xidmətlər göstərmiş, tarzən-müəllim kimi musiq sənəti tarixinə öz adını yazdırmışdır. Onun tar dərnəyində bir sıra o dövrün simaları ilə birgə səmərəli fəaliyyət nəticəsində milli musiqimizin inkişafında, tarın musiqi aləti kimi təbliğində gördükləri iş nümunəvi idi. Ona görə ki, sovetlərin ilkin dövrlərindən etibarən milli kökə bağlılıqdan uzaqlaşdırma siyasəti yeridilir, bu çərçivədə tarın da unutdurulması kampaniyası həyata keçirilirdi. Belə bir vaxtda Səfər Rəcəbli yaratdığı tar dərnəyi muxtar respublikada tarın musiqi aləti kimi müdafiəsi istiqamətində önəmli addım idi. Onun Pioner və Məktəblilər Evində Xalq Çalğı Alətləri Ansamblı yaratması və Naxçıvanın mədəni-kütləvi həyatında ansamblın fərqlənməsi də istedadlı tarzənin musiqi mədəniyyətimiz tarixindəki ehtirama layiq xidməti idi. Erkən yaşlarından musiqiyə xüsusi qabiliyyəti və istedadı ilə fərqlənən Səfər Rəcəbli Naxçıvan Dövlət Radio və Televiziya verilişləri Komitəsinin nəzdində yaradılan xalq çalğı alətləri ansamblının tərkibinə daxil edilir.

Naxçıvan musiqiçilərinin yetişdirilməsi və inkişafında müstəsna xidmətləri olan görkəmli pedaqoq Səfər Rəcəblinin tələbələrinin ilk müəllimləri haqqında xatirələri təşkil edir. Dillər əzbəri olan, bu gün də təravətini itirməyən, hər kəsin könlünü oxşayan, toy şənliklərində tez-tez səslənən məşhur "Naxçıvan" mahnısının müəllifi, bəstəkar Məmməd Cavadov Səfər müəllimin musiqiçi kimi pedaqoji fəaliyyətini xüsusi qeyd edirdi: "Səfər müəllim elə şövqlə, ürəklə dərs keçirdi ki, sanki böyük konsert salonunda minlərlə tamaşaçıya ustad dərsi deyirdi. Həqiqətən, mən onun hər bir dərsini ustad dərsi səviyyəsində keçirildiyini hesab edirəm" [7].

1943-1948-ci illərdə Naxçıvan Radio Verilişləri Komitəsində Xalq Çalğı Alətləri Ansamblına

rəhbərlik edən xalq musiqisinin vurğunu tarzən Yusif Əliyevin Səfər Rəcəbli ilə bağlı xatirələrindən: “Mən Naxçıvan Radio Verilişləri Komitəsində Xalq Çalğı Alətləri Ansamblına rəhbərlik etdiyim zaman Səfər Rəcəblini bu kollektivə dəvət etdim. 18 yaşlı bu gənc ansambldа dəf çalmaqla yanaşı, tar çalmağı da öyrəndi. Səfər Rəcəbli gənclik illərində artıq tanınmış, sayılıb-seçilən dəf ifaçısı idi. Qaval çalmaqla yanaşı, tar çalmağı öyrənən və tezliklə gözəl, özünəməxsus ifaçılıqla tarı dilləndirən Səfər Rəcəbli musiqiçilərimiz üçün sənət fədaisi, sənət nümunəsi idi. Onun işgüzarlığı, musiqiyə vurğunluğu ansamblın digər üzvlərinə sirayət edirdi. Bu isə ansamblımızın az müddətdə sevilən kollektivlər sırasında tanınmasına, dinləyicilərin, tamaşaçıların alqışlarını qazanmasına öz təsirini göstərirdi” [8]. Bəstəkar Məmməd Cavadov Səfər Rəcəblini xatırlayaraq deyirdi: “Naxçıvanda yaradılan Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin təşkilində, eləcə də fəaliyyətində Səfər Rəcəblinin müstəsna xidmətləri olmuşdur. Xalq musiqisini dərindən bilən Səfər xalq mahnı və rəqslərini, təsnifləri, dəramədləri orkestrin üzvlərinə öyrədir, ürəyə yatan harmonik səslə, köməkçi melodiyalarla bu əsərləri zənginləşdirirdi. Bu səbəbdən onun öyrətdiyi melodiyalar orkestrin repertuarında sabit yer tuturdu. Səfər Rəcəblinin şəxsi keyfiyyətləri, onun yaradıcılıq fəaliyyəti ilə uzlaşırdı, bir-birini tamamlayırdı. Səfəri həmişə xoş, mənim üçün əziz olan xatirələrlə xatırlayıram” [4, s. 25-26].

Öz istedadı və səyi nəticəsində az müddət ərzində Naxçıvanda məşhur tarzən kimi şöhrət tapan Səfər Rəcəbli Azərbaycanın ən gözəl musiqi alətlərindən birini olan tarı gənc nəslə sevdirmək sahəsində öz səyini əsirgəmirdi. Əlbəttə, Səfər müəllimin bu nəcib zəhməti hədər getmir. Vurğunu olduğu Azərbaycan milli musiqisini yeni nəslə həvəslə öyrədən sənətkar bu gün Naxçıvan Muxtar Respublikasının musiqi mədəniyyəti tarixində öz sözünü deyən çoxsaylı sənətkarların yetişməsində, formalaşmasında bütün varlığı ilə çalışırdı. Onun səyi nəticəsində Naxçıvanda bir çox istedadlı musiqiçilər, əsl mənada sənət vurğunları yetişərək ömürlərini musiqiyə bağlayırlar. Elə Səfər sənətinin ən böyük mənası da məhz bundadır. Səfər Rəcəblinin şagirdlərinin bir çoxunun sorağı bu gün də respublikamızın muxtəlif musiqi ocaqlarından gəlməkdədir. Virtuoz tar ifaçısı Əkrəm Məmmədli, Nazim Quliyev, Nazim Kazımov, Tariyel Abbasov, Tağı Tağıyev və bir çox tarzənlərə ilk dəfə tar tutmağı Səfər müəllim öyrətmişdir. Səfər Rəcəblinin adı “Əlvan çiçəklər” Mahnı və Rəqs Ansamblı ilə Naxçıvan musiqi mədəniyyəti tarixində əbədiləşmişdir.

Muğamların gözəl bilicisi Səfər Rəcəbli Naxçıvan şəhər Uşaq Musiqi Məktəbində müəllim, eyni zamanda Naxçıvan teatrında musiqi rəhbəri vəzifələrində də fəaliyyət göstərir. O, Naxçıvan teatrında Nəcəf bəy Vəzirovun “Adı var, özü yox”, “Yağışdan çıxdıq, yağmura düşdük”, Mirzə Fətəli Axundovun “Lənkəran xanının vəziri”, Əbdürrəhim bəy Haqverdiyevin “Pəri cadu” tamaşalarına, ümumiyyətlə 30-dan çox əsərə müsiqi tərtibatı vermişdir [4, s. 35-36].

Səfər Rəcəblinin Azərbaycan, eləcə də onun tərkib hissəsi olan Naxçıvan musiqi mədəniyyətinin inkişafı sahəsindəki yaradıcılığı dövlətimiz tərəfindən də qiymətləndirilmişdir. 1964-cü ildə unudulmaz sənətkar Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür. 1990-cı ildə isə adı əbədiləşdirilərək Naxçıvan şəhər 3 nömrəli Uşaq Musiqi Məktəbinə adı verilmişdir. Bütün bunlar onun sənətinə, əməyinə verilən yüksək dəyərin ifadəsi kimi əhəmiyyət daşıyır.

Görkəmli sənətkar Səfər Rəcəbli 1968-ci il sentyabrın 15-də dünyasını dəyişir və 16 sentyabrda Naxçıvan şəhər qəbiristanlığında dəfn olunur.

**Ramiz Mirişli** Naxçıvan torpağının yetirdiyi istedadlı bəstəkarlardandır. Ramiz Aqil oğlu Mirişli 1934-cü il aprelin 16-da Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan şəhərindəki orta məktəbi bitirdikdən sonra Asəf Zeynallı adına musiqi məktəbində (1952–1954), Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (1956–1962) bəstəkarlıq ixtisası üzrə ali musiqi təhsili almışdır. Əmək fəaliyyətinə 1954-cü ildən etibarən Azərbaycan Radio-informasiya İdarəsində musiqiçi kimi başlayan Ramiz Mirişli 1962-ci ilədək respublikanın müxtəlif musiqi məktəblərində müəllim işləmişdir. O, 1962–2005-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində musiqi baş redaksiyasında böyük redaktor və baş redaktor vəzifələrində işləmiş, həmçinin 1987–1995-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasında mahnı və rəqs ansamblının bədii rəhbəri vəzifəsində çalışmışdır. Ramiz Mirişli 1978-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan şöbəsi yaradılandan 1998-ci ilədək 20 il müddətində təşkilata rəhbərlik etmişdir. Onun rəhbərliyi ilə həm Naxçıvanda təşkilatın uğurlu fəaliyyəti olmuş, həm də muxtar respublikada fəaliyyət göstərən digər mədəniyyət təşkilatları, musiqi birlikləri ilə əməkdaşlıq etmişdir. O, Naxçıvanda musiqili kadrların yetişməsi və formalaşması istiqamətində çoxsaylı işlər görülmüşdür.

Ramiz Mirişli yaradıcılığı boyu musiqinin bütün janrlarına müraciət edib. Müxtəlif janrlarda əsərlər yazıb. Operettalar, kamera orkestri üçün simfoniyalar, simfonik poemalar, simfonik süitalar, kantatalar yazməş, səs və orkestr üçün vokal məcmuələrhazırlamış, fortepiano üçün süita və miniatürlər, teatr tamaşaları və kinofilmlərə musiqilər yazmışdır... Ancaq onu bir bəstəkar kimi xalqa daha çox tanıdan və sevdirən mahnı yaradıcılığı olub. Bəstəkar mahnıya olan sevginin sirrini belə açır: "Mahnı xalq tərəfindən sevilən janrdır. Yəqin bu, muğamatı yaxşı bilməyimdən irəli gəlir. Muğamat elə bir xəzinədir ki, bəstəkarlar ondan nə qədər götürsə də azalmır, əksinə, artır. Mənə elə gəlir ki, muğam ilahi tərəfindən səmadan göndərilmiş musiqidir. Bu, mükəmməl musiqini yaratmaq qeyri-mümkündür... Onda cavan oğlan idim. Konservatoriyada oxuyurdum. Tələbə dostlarımla tez-tez dənizə gedirdik. Həmin mahnı o illərdə yarandı. Şair İslam Səfərli ilə bir məhəllədə yaşayırdıq. Eşitmişdi ki, konservatoriyada oxuyuram, evinə çağırıb mənə "Dalğalar" adlı şeirini verdi. Mən də ona musiqi yazdım. Bu, mənim ilk professional mahnım oldu. Mahnı hazır olan kimi ürəyimdən keçdi ki, onu Şövkət Ələkbərova oxusun. Şövkət xanıma zəng etdim. O da böyük məmnuniyyətlə təklifimi qəbul etdi... Ancaq o vaxtlar bədii şura vardı. Şeirdəki "çalxalanır dalğalar" sözünə görə mahnı birinci bədii şuradan keçmədi. Dedilər, bu, mahnı sözü deyil. O sözləri rəhmətlik İslam Səfərli "mirvari dalğalar" sözləri ilə əvəz elədi. Mən ona görə sevinirdim ki, ilk mahnımı Şövkət xanım oxuyacaq" [5].

Ramiz Mirişli xalq ruhunda, xalq dilində yazan bəstəkardır. Mahnılarının uzunömürlü olmasının, daim dillərdə, könüllərdə səslənməsinin sirri də elə bundadır. Tanınan və sevilən müğənnilərin əksəriyyəti, xüsusən də şedevr müğənnilər, Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Rəşid Behbudov, Flora Kərimova, İlhamə Quliyeva, Yaşar Səfərov, Elmira Rəhimova və digərləri Ramiz Mirişli yaradıcılığına müraciət edib, onun mahnılarını oxuyublar. Sonrakı illərdə də müğənnilər onun həzin, qəlbəyatan mahnıları ilə şöhrətləniblər.

Ramiz Mirişlini məhsuldar bəstəkar kimi daha çox tanıdan və sevdirən əvvəldə deyildiyi kimi onun mahnı yaradıcılığı olub. Məşhur Azərbaycan şairlərinin sözlərinə yazdığı həmin çoxsaylı mahnılar sənətsevərlərin böyük rəğbətini qazanıb. Kompozisiya bütövlüyü, dərin lirizm, təbiilik, səmimiyyət və emosional təsir gücü onları səciyyələndirən başlıca cəhətlərdir. Ramiz Mirişlinin mahnıları görkəmli ifaçıların repertuarında özünəməxsus yer tutaraq, ölkəmizdə və onun hüdudlarından kənarda müəllifinə şöhrət gətirmişdir. Bu əsərlər doğma yurda məhəbbət və milli dəyərlərə ehtiram aşılamaqla gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında Ramiz Mirişlinin xidmətləri layiqincə qiymətləndirilmişdir. Görkəmli bəstəkar ölkəmizdə musiqi sənəti sahəsində qazandığı nailiyyətlərə görə Azərbaycan SSR (1982), Naxçıvan MSSR (1974) Əməkdar incəsənət xadimi, Azərbaycan SSR Xalq artisti (1990) fəxri adlarına layiq görülmüş, Müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından "Şöhrət" (2004) və "Şərəf" (2014) ordenləri ilə təltif edilmişdir. Görkəmli bəstəkar 2015-ci il aprelin 17-si Bakı şəhərində vəfat etmişdir.

**Nəriman Məmmədov** yaradıcılığı Azərbaycan musiqi mədəniyyətinin, eləcə də Naxçıvan musiqi mədəniyyətinin inkisafında xüsusi əhəmiyyət kəsb edir. Nəriman Həbib oğlu Məmmədov 1927-ci il, dekabr ayının 27-də Naxçıvan şəhərində anadan olmuşdur. O, kiçik yaşlarından musiqiyə həvəs göstərməyə başlamış, musiqi sahəsində ilk addımlarını da Naxçıvan şəhərində fəaliyyət göstərən pioner və məktəblilər evində (indiki Heydər Əliyev adına Uşaq və Gənclər Sarayı) atmışdır.

Pioner və məktəblilər evində yaradılmış tar dərnəyində, Səfər Rəcəbovun sinfində təhsil alan bəstəkar, daha sonra Naxçıvan şəhər 1 saylı uşaq musiqi məktəbində təhsilini davam etdirmişdir. Nərimanın hələ usaqlıqdan hiss olunan qeyri-adi musiqiçilik istedadının həm müəllimlərinin, həm də valideyinlərinin nəzər-diqqətini cəlb edir. O vaxt kimsənin ağlına belə gəlməzdi ki, doğma diyara dərin tellərlə bağlanan bu balaca oğlan illər sonra bu yerləri vəsf edən sanballı musiqi əsərləri yazacaq, Naxçıvan torpağı bəstəkar övladının bəstələrində başdan-başa gül açacaqdı. "Naxçıvan", "Araz üzərində Çənlibel Qalası", "Qızlar bulağı", "Çiçəklənən Naxçıvan", "Sirab" kimi təkrarsız əsərlər sənətkarın torpaq, el sevgisindən yaranıb onun yaradıcılığında önəmli yer tutacaqdı. Musiqi məktəbini uğurla bitirdikdən sonra Nəriman Məmmədov Asəf Zeynallı adına Bakı Musiqi Texnikumuna (indiki Bakı Musiqi Kolleci) daxil olur. Texnikumda oxuduğu illərdə o, xalq çalğı alətləri üçün "Suita"sını bəstələyir. Hələ musiqi texnikumunda oxuyarkən gənc Nərimanın xalq çalğı alətləri üçün bəstələdiyi suitası görkəmli bəstəkar, dirijor Səid Rüstəmovun rəhbərlik etdiyi xalq çalğı alətləri orkestrinin ifasında səslənir. Bu bəstəkarın incəsənət dünyasına ilk uğurlu addımı idi. Onuda

qeyd edək ki, Nəriman Məmmədov ayrı-ayrı illərdə Bakı Musiqi Akademiyasının iki fakültəsini bitirib: musiqişünaslıq üzrə 1956-cı ildə, bəstəkarlıq üzrə (professor C.Hacıyevin sinfi) 1961-ci ildə bitirmişdir. Nəriman Məmmədov nədən və kimdən yazırsa yazsın, öz lirik dünyasına, daxili məninə sadiq qalan bəstəkar, musiqişünas idi. Məhəbbətlə, ilhamla yazdığı müxtəlif janrlı əsərlər onun musiqi istedadından, dərin bilgilərindən irəli gəlirdi [9].

Səməd Vurğunun eyni adlı poeması əsasında yazılmış «Humay» baleti 80-ci illərdə Azərbaycan Dövlət Opera və Balet teatrında səhnələşdirilmişdir. “Humay” baletində muğamlarımızdan məharətlə istifadə edilmişdir. Respublikanın xalq artisti Cövdət Hacıyev “Nəriman Məmmədov Humay ilə balet tariximizin yeni parlaq səhifəsini açdı” fikirlərini vurğulamışdır [6, s. 194]. Maraqlıdır ki, baletin klaviri Moskvada çap edildi. Bəstəkarın yaradıcılığında instrumental musiqi müxtəlif janrlarla təmsil edilir. Onun xüsusilə proqram xarakterli simfoniyaları – Hüseyn Cavidə həsr olunmuş IV simfoniyası, Xocalı faciəsinə həsr olunmuş VII simfoniyası və “Fərhad və Şirin” poeması diqqətəlayiqdir

Əsərləri: “Humay”, “Şeyx Sənan” baletləri, 5 musiqili komediya: “Altı qızın biri pəri”, “Qız görüşə tələsir”, “Məmmədəli kurorta gedir” (T.Bakıxanovla birlikdə), “Olacağa çarə yoxdur”, “Pasport” və s., 7 simfoniya (IV - Hüseyn Cavidə, VII - Xocalı şəhidlərinə həsr olunub), fleyta, violin və piano üçün Trio, simfonik poema, zərb alətləri və orqan üçün Poema, “Azərbaycan” oratoriyası, piano və orkestr üçün 5 konsert, xalq çalğı alətləri orkestri üçün “Dəstgah”, “Zərbi-muğam”, Azərbaycan şairlərinin sözlərinə bəstələnmiş mahnılar və s.

N.Məmmədov bir musiqişünas kimi Azərbaycan muğamlarının notlaşdırılması və tədqiqi sahəsində mühüm xidmətləri olmuşdur. Tarzən-pedaqoq Əhməd Bakıxanovun ifasından “Rast”, “Şur”, “Çahargah”, “Segah-Zabul”, “Bayatı-Şiraz”, “Humayun”, “Şahnaz”, “Rahab” muğamlarını instrumental şəkildə, xanəndə (Hacıbaba Hüseynov, Yaqub Məmmədov) və sazəndə dəstəsinin ifasından “Çahargah” (Moskva, 1970) və “Rast” (Moskva, 1978) muğam dəstgahlarını vokal-instrumental şəkildə nota salmışdır.

**Ötən əsrin 50-ci illərində şifahi peşəkar musiqinin bilicisi, bəstəkar Nəriman Məmmədov muğam dəsgahlarının silsilə şəkildə yazılması işinə başlayır. Bunun nəticəsində müxtəlif illərdə “Bayatı-Şiraz”, “Şur” instrumental, “Çahargah” və “Rast” vokal instrumental muğam dəsgahları Moskvada, “Rast”, “Şahnaz”, “Çahargah”, “Humayun”, “Segah”, “Zabul” və “Rahab” instrumental muğamları isə Bakıda nəşr olunur. Bu nəşrləri Azərbaycan musiqi irsinin mənimsənilməsində və öyrənilməsində mühüm bir mərhələ saymaq olar. Bütün bunlar bəstəkar-musiqişünas Nəriman Məmmədovun milli musiqimiz qarşısında qiymətli xidmətləridir [2].**

Nəriman Məmmədov həm də gözəl lirik mahnılar müəllifi idi. “Nə zaman darıxmışam”, “Döyünən ürək”, “Yenə peşiman oluram”, “Gözüm axtarır səni”,“Sənin eşqin mənim eşqim”,“Səndə çoxdan gözüm var”, “Kaş güləydi bəxtimiz”, “Ulduzun olaydım”, “Küsmüşəm, dindir”, “Ayrılıq olmasaydı”, “Tez səni axtarıram”, “Mən səni axtarıram”, “Mən səninəm”-oxunduqca yenə xəyalımızda ölümsüz bəstəkar canlanacaq. Qeyd edək ki, bəstəkarın mahnılarını bütün dövrlərin ən məşhur müğənniləri oxuyub – Rəşid Behbudov, Şövkət Ələkbərova, Gülağa Məmmədov, Flora Kərimova və digərləri. Təbii ki, bu siyahını uzatmaqda olar, ancaq bəstəkarın əsərləri kim tərəfindən oxunursa oxunsun, daim müəllifinin ünvanına gur alqışlar qazandırır. Hər dəfə bu mahnıları dinləyəndə bəstəkar qəlbinin həzin pıçıltıları, kövrək hissləri, zərif duyğuları aydınca hiss olunur.

Görkəmli bəstəkarın yaradıcılığında qırmızı xətt kimi keçən və bəstəkara böyük şöhrət gətirən üç musiqili komediyası Azərbaycan musiqisinin qızıl fondunu bəzəyir. “Altı qızın biri Pəri”, “Məmmədəli kurorta gedir”, “Qız görüşə tələsir” musiqili komediyaları Azərbaycan Dövlət Musiqili Komediya Teatrında uğurla tamaşaya qoyulub. Bəstəkarın böyük şairimiz Səməd Vurğunun “Komsomol” poemasının motivləri əsasında yazdığı “Humay” baleti 1981-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında uğurla səhnəyə qoyularaq müəllifinə böyük şöhrət gətirib. Qeyd edək ki, bəstəkarın müəllimi olan Cövdət Hacıyev adını çəkdiyimiz balet haqqında yazırdı ki, “Nəriman Məmmədov Humay baleti ilə balet tariximizdə yeni bir parlaq səhifə açmışdır” [1, s. 79].

N.Məmmədov Ə.İsazadə ilə birlikdə Azərbaycan xalq yaradıcılığının örnəklərini toplanıb nəşr edilməsində böyük xidmətlər göstərməklə “Azərbaycan xalq mahnıları və oyun havaları” məcmuəsini tərtib etmişdir. Elmi məcmuələrdə bir sıra məqalələrin müəllifidir.

Nəriman Məmmədovun heyranedici, çoxşaxəli bəstəkarlıq yaradıcılıgı vardır. O, yeddi

simfoniyanın müəllifidir. Onun bəstələdiyi 7 konsertindən dördü fortepiano ilə simfonik orkestr, 7- ci konserti isə fleyta ilə orkestr üçün yazılmışdır. Fortepiono üçün yazdığı konsertlərin ikisi Moskva radiosunun fondunda saxlanılır. Nəriman Məmmədov bir neçə simfonik poema, kamera orkestri üçün pyeslər, instrumental əsər-kvartet, trio və sonata bəstələməklə yanaşı, öz yaradıcılığında mahnı janrına da xüsusi yer ayırmışdır. Nəriman Məmmədovun 700-ə yaxın mahnısı Azərbaycanın görkəmli müğənnilərinin ifasında lentə yazılmışdır. Bəstəkar mahnılarının mətnləri üçün əsasən şairlərdən R.Rza, B.Vahabzadə, F.Qoca, R.Heydər, R.Muxtar, N.Kəsəmənli, R.Abdullayev, M.Urud və Xuraman Vəfanın sözlərinə müraciət etmişdir.

Məmmədov Nəriman Həbib oğlu Azərbaycan Respublikası (1982) və Naxçıvan Muxtar Respublikasının (1974) Əməkdar incəsənət xadimi və Azərbaycan Respublikasının Xalq artisti (2005) fəxri adlarına layiq görülmüşdür. Nəriman Məmmədov 1961-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvlüyünə daxil olmuşdur.

Qayğıkeş müəllim, görkəmli bəstəkar, Bakı Musiqi Akademiyasının professoru Nəriman Məmmədov ömrünü musiqi mədəniyyəti tariximizə xidmətdə başa vurdu. 2015-ci ilin aprel ayının 6-da bu dünyasını dəyişdi. Mənalı ömrünün son gününədək yazdı-yaratdı. Özündən sonraya xalqımıza ölümsüz əsərlər buraxdı. İllər keçsə də dəyərli incəsənət xadimi hər zaman mahnılarında xatırlanacaq. Bu gün bizim sevərək dinlədiyimiz mahnılar bəstəkarın mənalı ömrünün akkordları, musiqi xəzinəmizin ən dəyərli inciləridir. Yoxluğu Azərbaycan bəstəkarlıq mühitində, mədəniyyət dünyamızda da hiss olunmaqdadır. Naxçıvan torpağının bəstəkar oğlu musiqiyə xidmətləri və zəngin fəaliyyəti ilə öz adını əbədiləşdirdi.

**Nəticə**

Naxçıvan musiqi məktəbinin Səfər Rəcəbli, Ramiz Mirişli, Nəriman Məmmədovun yaradıcılıq fəaliyyətləri milli-mənəvi dəyərlərimizin, eləcə də milli musiqimizin təbliğinə həsr edilmişdir. Görkəmli musiqi xadimlərinin musiqi, bəstəkarlıq sahəsində əldə etdikləri nailiyyətlər bu gün də onları yaşadır. Belə ki, dövlətimiz tərəfindən vaxtaşırı yubileyləri keçirilir. Adları əbədiləşdirilərək müxtəlif müəssisələrə, musiqi məktəblərinə verilir. Onların həyat və yaradıcılıqları da tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Görkəmli sənətkarların hər biri haqqında tədqiqatlar aparılmış, onlarla kitab, monoqrafiya, elmi tədqiqat əsərləri, çoxsaylı elmi və elmi publisistik məqalələr yazılmışdır. İnamla deyə bilərik ki, bundan sonra onların həyat və yaradıcılıqları yenidən tədqiqata cəlb ediləcək, daha genişliyi ilə araşdıracaq, yeni-yeni monoqrafiyaların, kitabların, məqalələrin ərsəyə gəlməsinə nail olacaqlar.

## ƏDƏBİYYAT

1. Azərbaycan xalq musiqisi. Oçerklər. Bakı, 1981, 297 s.
2. Bəstəkar Nəriman Məmmədov. “Xalq qəzeti”, 2017, 28 avqust.
3. Фархадова Р. Нариман Мамедов. Баку: “Ишыг”, 1982, 189 s.
4. Quliyev N. Görkəmli ustad Səfər Rəcəbli – 100. Bakı: MBM, 2015, 115 s.
5. Məhərrəmova T. Sevilən mahnıların sevilən bəstəkarı. “Kaspi” qəzeti, 2013,18 aprel.
6. Məmmədov M. Nəriman Məmmədovun bəstəkarlıq fəaliyyəti və yaradıcılıq irsi. AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Axtarışlar. Naxçıvan: “Tusi” nəşriyyati, 2020, №-1.
7. Sadiqoğlu A. Əsl sənət fədaisi. “Xalq qəzeti”, 2015, 28 dekabr.
8. https://nculture.gov.az xeber. Axundzadə F. Naxçıvan tar sənəti 100 il: Ənənə və novatorluq.
9. https://nuhçixan.az news. Bayramlı N. Naxçıvanın nəğməkar övladı-Nəriman Məmmədov.

***AMEA Naxçıvan Bölməsi**
***E-mail: mlahtzamanova@gmail.com***

**Aysel Novruzova**

**PROMINENT REPRESENTATIVES OF NAKHCHIVAN SCHOOL OF MUSIC**

In Marala, the life and works of the most prominent representatives of the Nakhchivan music school – Safar Rajabli, Ramiz Mirishli and Nariman Mammadov – are discussed. Also, following

the artistic path of these musical figures, the pearls they gave to Azerbaijani music are discussed. In addition to these, their services in the cteation and development of the “Alvan flowers’’ Song and Dance Ensemble, the Nakhchivan State Song and Dance Ensemble, and the Nakhchivan Composers’ Union operating in the Nakhchivan Pioneer and Schoolmen’s Hause are highlighted.

**Keywords:** *Nakhchivan, composer, musicians, S.Rajabli, R.Mirishli, N.Mammadov, folk musical instruments.*

**Айсель Новрузова**

**ВЫДАЮЩИеСЯ ПРЕДСТАВИТЕЛИ НАХЧЫВАНСКОЙ МУЗЫКАЛЪНОЙ ШКОЛЫ**

В Марале обсуждаются жизнъ и творчество виднейших представителей нахчыванской музыкалъной школы – Сафара Раджабли, Рамиза Миришли и Наримана Мамедова. Также, прослеживая творческий путъ этих музыкалъных деятелей, обсуждаются жемчужины, которые они дали азербайджанской музыке. Помимо этого отмечены их заслуги в создани и развитии ансамбля песни и танца «Алванские цветы», Нахчыванского государственного ансабля песни и танца, Союза композиторов Нахчывана, действужщего при Нахчыванском Доме пионеров и школъников.

**Ключевые слова:** *Нахчыван, композимор, музыканты, С.Раджабли, Р.Миришли, Н.Мамедов, народные музыкалъные инструменты.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 12.10.2024**
**Son daxilolma tarixi:12.11.2024**